Vətən bölünməzdir!

LƏNKƏRAN

İCTİMAİ-SİYASİ QƏZET

№ 23-24 (8475) ◉ Çərşənbə, 03 iyul 2019-cu il ◉ Qəzetin əsası 1931-ci ildə qoyulmuşdur ◉ Qiyməti 50 qəpik

MİNİMUM AYLIQ ƏMƏKHAQQININ ARTIRILMASI HAQQINDA

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Minimum aylıq əməkhaqqının məbləği 250 manat müəyyən edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının, o cümlədən Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən olunmuş dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin aylıq tarif (vəzifə) maaşlarının məbləğlərinin bu Sərəncamın 1-ci hissəsinə uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin aktları ilə müəyyən olunmuş dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin aylıq tarif (vəzifə) maaşlarının məbləğlərini bir ay müddətində bu Sərəncamın 1-ci hissəsinə uyğunlaşdırsın;

2.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Bu Sərəncamın 1-ci hissəsi 2019-cu il sentyabrın 1-dən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti.

Bakı şəhəri, 18 iyun 2019-cu il.

İCRA BAŞÇISININ SƏYYAR QƏBUL-GÖRÜŞLƏRİ

Biləsər kəndində

Lənkəran Şəhər İcra Hakimiyyətinin (ŞİH) başçısı Talеh Qaraşov səyyar qəbul-görüşlərini ucqar dağ kəndlərində davam etdirir. Növbəti səyyar qəbul-görüş iyunun 19-da Biləsər kəndində keçirilib.

ŞİH-nin, hüquq-mühafizə orqanlarının, təhsil, səhiyyə, mədəniyyət və xidmət sahələrinin rəhbər işçilərinin iştirakı ilə keçən görüşdə vətəndaşların müraciətləri dinlənilib, qaldırılan məsələlər diqqətlə araşdırılaraq həllindən ötrü tədbirlər müəyyənləşdirilib.

Səyyar qəbuldan razılıqlarını ifadə edən sakinlər Lənkəran şəhərinin və rayonun sosial-iqtisadi inkişafı sahəsində görülən işləri yüksək qiymətləndiriblər. Onlar vaxtlı-vaxtında maaşların, pensiya və müavinətlərin artırılmasına, minimum əmək haqqının növbəti dəfə artırılaraq 250 manata çatdırılmasına və xüsusilə sakinlərin istifadə etdiyi yeganə nəqliyyat xətti olan Hirkan-Daşdatük-Biləsər-Alazəpin yolunun əsaslı təmir olunmaqla asfaltlanmasına və Alazəpin kəndində qəzalı vəziyyətdə olan məktəb üçün təzə modul tipli binanın tikilməsinə görə ölkə Prezidenti cənab İlham Əliyevin ünvanına minnətdarlıqlarını ifadə ediblər.

Çıxışlarda ŞİH başçısının vətəndaş müraciətlərinə göstərdiyi həssas münasibət xüsusi qeyd olunmaqla yuxarıda göstərilən yeniliklərin məhz bu diqqətin bəhrəsi olduğu xüsusi vurğulanıb. Onlar, eyni zamanda, Ələt-Astara-İran sərhədi magistral avtomobil yolunun istifadəyə verilməsinin bu ərazidə yaşayan sakinlərin də rahatlığı üçün gözəl şərait yaratdığını qeyd ediblər. Diqqətə çatdırılıb ki, aqrar sahədə çalışan sahibkarlara tətbiq olunan güzəştlər, verilən subsidiyalar ölkə Prezidentinin əvəzsiz qayğısı kimi hər bir sakini öhdəsində olan torpaq sahəsindən səmərəli istifadə etməyə həvəsləndirdiyindən təsərrüfatlardan bol məhsul yığılıb, iribuynuzlu və xırdabuynuzlu heyvanların, arı ailələrinin sayı çoxalıb, sakinlərin gəlirləri artıb, maddi vəziyyətləri xeyli yaxşılaşıb.

Görüşə görə təşəkkürlərini bildirən sakinlər ölkə rəhbərliyinin həyata keçirdiyi siyasəti tamamilə dəstəklədiklərini bildiriblər.

Sonda İcra başçısı sakinlər tərəfindən səsləndirilmiş fərdi müraciətlərin həlli ilə də bağlı aidiyyəti məsul şəxslərə müvafiq tapşırıqlar verib.

Kənarmeşə kəndində

İyunun 27-də Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Talеh Qaraşov rayonun Kənarmeşə kəndində növbəti səyyar qəbul-görüşünü keçirib. İcra aparatı rəsmilərinin, hüquq-mühafizə orqanları, təhsil, səhiyyə, mədəniyyət və xidmət sahələri rəhbərlərinin iştirakı ilə keçən qəbulda vətəndaşların müraciətləri dinlənilib, inzibati ərazi vahidliyinin inkişafı ilə bağlı təkliflərə münasibət bildirilib.

Qəbul zamanı sakinlər son illərdə Lənkəran rayonunun sosial-iqtisadi inkişafı sahəsində görülən işlərdən, xüsusilə Ələt-Astara-İran İslam Respublikası dövlət sərhədi avtomobil yolunun istifadəyə verilməsindən və Aşağı Nüvədi-Kənarmeşə-Şürük magistral avtomobil yolunun başdan-başa asfaltlanmasından razı qaldıqlarını bildirərək, bu qayğıya görə ölkə Prezidentinə minnətdarlıqlarını ifadə ediblər. Sakinlər həyata keçirilən sosial-iqtisadi islahatların, icra olunan infrastruktur layihələrin onların

maddi-məişət şəraitinin yaxşılaşdırdığını minnətdarlıq hissi ilə vurğulayıblar.

Qəbul-görüş zamanı sakinlər görülən işləri yüksək qiymətləndirməklə yanaşı, Kənarmeşə kəndinin sosial-iqtisadi inkişafı və fərdi məsələlərlə əlaqədar müraciət edərək bir sıra təkliflər irəli sürüblər. Qaldırılan məsələlər yerindəcə müzakirə olunaraq onların həlli ilə bağlı aidiyyatı məsul şəxslərə İcra başçısı tərəfindən konkret tövsiyə və tapşırıqlar verilib.

"Lənkəran"

Montereyli qonaqlar Lənkəranda

Səh. 2

Səh. 3

Xoşbəxt həyat, nurlu gələcək naminə

Ailənin formalaşmasında qarşılıqlı münasibətlərin rolu

Səh. 4

Səh. 5

Su həyatımızdır

"Gender bərabərliyi və media azadlığı"

Səh. 6

HİNDİSTAN SƏFİRİ LƏNKƏRANDA

İyunun 19-20-də Hindistanın Azərbaycandakı səfiri Vanlalvavna Bavitlunq Lənkəran rayonunda işgüzar səfərdə olub.

Lənkəran Şəhər İcra Hakimiyyətində hindistanlı qonaqla keçirilən görüşdə ona rayonun tarixi, coğrafi mövqeyi, sosial-iqtisadi və mədəni həyatı barədə ətraflı məlumat verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən sosial-iqtisadi inkişaf kursunun uğurlu nəticələrinin Lənkəranın da simasından aydın göründüyünü vurğulayan Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov son illər rayonda aparılan genişmiqyaslı quruculuq-abadlıq işləri, həyata keçirilən sosial-iqtisadi layihələr, istifadəyə verilən yeni obyektlər, turizm infrastrukturu, asfalt yollar, körpülər, xüsusilə kənd təsərrüfatının, çayçılıq, çəltikçilik, sitrusçuluq və baramaçılıq sahələrinin sürətli inkişafından danışıb.

Səmimi qəbula görə minnətdarlığını ifadə edə səfir Vanlalvavna Bavitlunq Hindistan-Azərbaycan dostluq və əməkdaşlıq əlaqələrinin inkişafından razılığını, bu əlaqələrin daha da dərinləşməsindən ötrü çalışacağını söyləyib.

Qeyd olunub ki, Azərbaycanın Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizlərinin üzərində yerləşməsi bu ölkəni qlobal layihələrin həyata keçirilməsində əsas iştirakçılardan birinə çevirib və çoxlu sayda yaxın və uzaq ölkələrlə iqtisadi, ticari və mədəni əlaqələrin qurulmasına əlverişli imkanlar açır.

Hindistanlı səfir ölkəsinin Azərbaycanla geniş əlaqələri olan ölkələrdən olduğunu və gələcəkdə bu əlaqələrin daha da inkişaf edəcəyinə əminliyini diqqətə çatdırıb.

Səfir Vanlalvavna Bavitlunq Lənkərana səfəri çərçivəsində Lənkəran Dövlət Universitetində, Heydər Əliyev Xatirə Parkında, Heydər Əliyev Mərkəzində, Gənclər Mərkəzində, Tarix-Diyarşünaslıq Muzeyində, Lənkəran Konserv Zavodunda, "Cənub Aqro" MMC-nin çəltik zavodunda, "Azərxalça"nın Lənkəran filialında və "Green East" MMC-nin çəltik plantasiyasında olub.

Sonra 21 iyun – Beynəlxalq yoqa günü münasibətilə Lənkəran şəhərindəki Heydər Əliyev Xatirə Parkında yoqa ustalarının ifasında beşinci yoqa sessiyası üzrə xüsusi təmrinlər nümayiş etdirilib. Tamaşaçılar bu təmrinləri alqışlarla qarşılayıblar.

Səfər çərçivəsində Hindistanın ölkəmizdəki səfiri Lənkəran çay fabrikində emal prosesi, Sütəmurdov kəndində "Hallobonq" sortlu sitrus plantasiyası, Lənkəran Olimpiya İdman Kompleksi, "Yaşıl çay" fermer təsərrüfatının çay plantasiyaları, İstisu Sağlamlıq Mərkəzində yaradılan müalicə və istirahət şəraiti ilə tanış olub, Hirkan və Qızılağac Milli parklarına, həmçinin Xanbulançay su dəryaçasına baxıb.

"Lənkəran"

LƏNKƏRANDA DÖVLƏT QULLUQÇULARININ PEŞƏ BAYRAMI QEYD OLUNUB

İyunun 22-də Lənkəran şəhər Heydər Əliyev Mərkəzində dövlət qulluqçularının peşə bayramı günü münasibətilə tədbir keçirilib. Tədbirdən əvvəl Lənkəran Şəhər İcra Hakimiyyətinin (ŞİH) başçısı Taleh Qaraşov, İcra başçısı aparatının kollektivi, rayonun ərazi icra nümayəndəliklərində və ayrı-ayrı təşkilatlarında çalışan dövlət qulluqçuları Heydər Əliyev Xatirə Parkında Ümummilli Liderin abidəsini ziyarət edərək önünə gül-çiçək dəstələri düzməklə dahi rəhbərə hörmət və ehtiramlarını bildiriblər.

Sonra Heydər Əliyev Mərkəzinin akt zalında davam etdirilən tədbiri açan İcra başçısı Taleh Qaraşov BMT-nin təşəbbüsü ilə 2003-cü ildə təsis olunmuş dövlət qulluqçularının peşə bayramının Azərbaycanın da ictimai-siyasi həyatında əlamətdar hadisə kimi artıq 13-cü dəfə qeyd olunduğunu diqqətə çatdırıb. Bayram münasibətilə dövlət qulluqçularını təbrik edən natiq Ulu Öndər Heydər Əliyevin və cənab Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə müstəqil Azərbaycan dövlətinin möhkəmlənməsində və inkişafında dövlət qulluqçularının böyük əməyi olduğunu, öhdələrinə düşən vəzifələrin icrasında səylə çalışdıqlarını, vətənə, xalqa və dövlətə ləyaqətlə xidmət etdiklərini bildirib.

İcra başçısı qeyd edib ki, cənab Prezident İlham Əliyevin təşəbbüsü ilə qəbul olunmuş "Dövlət Qulluğu haqqında Azərbaycan Respublikası Qanunu" bu məsul sahədə çalışan qulluqçuların səmərəli fəaliyyəti üçün geniş imkanlar açıb. Rayonda çalışan dövlət qulluqçuları da sosial-iqtisadi və mədəni həyatın bütün sahələrində dövlət siyasətinin uğurla həyata keçirilməsindən ötrü səylə çalışırlar. Onların iş və maddi-məişət şəraitinin yaxşılaşdırılmasına, təhsilinin artırılmasına və təcrübəsinin təkmilləşdirilməsinə müntəzəm olaraq qayğı göstərilir, işdə fərqlənən dövlət qulluqçularının əməyinin qiymətləndirilməsinə ölkə Prezidenti tərəfindən daim diqqət yetirilir.

Sonra İcra başçısının müavini – İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Rasilə Əliyevanın məruzəsi dinlənilib, İcra aparatının sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Seyidzadə Şəfiyeva və digərləri həmkarlarını bayram münasibətilə təbrik ediblər.

Sonda işdə fərqlənən bir qrup dövlət qulluqçusuna Lənkəran ŞİH-nin Fəxri fərmanları təqdim olunub.

"Lənkəran"

MONTEREYLİ QONAQLAR LƏNKƏRANDA

Lənkəranla qardaşlaşma əlaqələrini uğurla davam etdirən ABŞ-ın Kaliforniya ştatının Monterey şəhərinin Bələdiyyə Şurasının üzvü Allan Haffa və Monterey-Lənkəran dostluq cəmiyyətinin sədri Nensi Selfricdən ibarət nümayəndə heyəti iyunun 23-də Lənkəran şəhərinə səfərə gəlib.

İyunun 24-də nümayəndə heyəti Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov tərəfindən qəbul edilib. Səmimi şəraitdə keçən qəbul zamanı ABŞ-Azərbaycan dostluq və əməkdaşlıq əlaqələrinin getdikcə möhkəmlənməsindən razılıq ifadə olunaraq bu əlaqələr çərçivəsində Lənkəran və Monterey şəhərlərinin qardaşlaşmasının hər iki ölkənin xalqlarının daha da yaxınlaşmasına və sıx ünsiyyət qurmasına töhfə olduğu vurğulanıb. Lənkəran şəhərinin tarixi, coğrafi mövqeyi, sosial-iqtisadi və mədəni həyatı barədə qonaqlara ətraflı məlumat verən İcra başçısı son illərdə rayonda aparılan quruculuq-abadlıq işləri, həyata keçirilən sosial-iqtisadi layihələr, istifadəyə verilən yeni obyektlər, turizm infrastrukturu, asfalt yollar, körpülər, xüsusilə kənd təsərrüfatının, o cümlədən çayçılıq, çəltikçilik, sitrusçuluq və baramaçılıq sahələrinin sürətli inkişafından geniş söz açıb.

Səmimi qəbula görə İcra başçısına təşəkkürünü bildirən qonaqlar Lənkəranla qardaşlıq əlaqələrinin bundan sonra da dərinləşməsindən ötrü çalışacaqlarını söyləyiblər.

Sonra qonaqlar tanışlıq məqsədilə Heydər Əliyev Xatirə Parkında, Heydər Əliyev Mərkəzində, Gənclər Mərkəzində, İstisu Müalicə İstirahət Mərkəzində, "Palıdlı sahil" İstirahət Mərkəzində, Lənkəran Dövlət Universitetində, Lənkəran xalça fabrikində, "Yaşıl çay" fermer təsərrüfatında olub, Hirkan Milli Parkında, Xanbulan dəryaçasında, Azərbaycanın Milli Qəhrəmanı Əsgər Əliyev adına Parkda Lənkəranla qardaşlaşmış şəhərlərin şərəfinə əkilmiş dəmir ağacına və xatirə lövhəsinə baxıblar.

Həmin gün qonaqlar Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli ilə görüşüblər.

Səfər müddətində montereyli qonaqlar həmçinin Lənkəran Olimpiya İdman Kompleksinə, "Hallobonq" sitrus bağına, "Cənub Aqro" MMC-nin çəltik plantasiyasına və zavoduna, "Green East" MMC-nin çəltik plantasiyasına, "Nağıl" uşaq bağçasına, "Mandarin " uşaq əyləncə mərkəzinə, Lənkəran çay fabrikinə, M.A.Əliyev adına Tarix-diyarşünaslıq muzeyinə (Xan evi), Lənkəran Dövlət Dram Teatrına, Lənkəran Mayakına, Azərbaycanlıların Soyqırımı Parkına, Qala Xiyabanına, Həzi Aslanov Xiyabanına, Şəhər Mədəniyyət Mərkəzinə də baş çəkiblər.

"Lənkəran"

LƏNKƏRAN RAYON PROKURORUNUN 2019-CU İLİN II YARIMİLLİYİNDƏ VƏTƏNDAŞLARIN YAŞAYIŞ YERLƏRİ ÜZRƏ KEÇİRƏCƏYİ QƏBULUN QRAFİKİ

Qəbulun keçiriləcəyi tarix və vaxt	Qəbulun keçiriləcəyi şəhər (kənd, qəsəbə) və yer	Qəbulu aparan vəzifəli şəxs
25 iyul 2019-cu il saat 16:00	Viyən kəndi (ərazi nümayəndəliyinin inzibati binası)	Lənkəran rayon prokuroru baş ədliyyə müşaviri Elçin Məmmədov
28 avqust 2019-cu il saat 16:00	Girdəni kəndi (ərazi nümayəndəliyinin inzibati binası)	Lənkəran rayon prokuroru baş ədliyyə müşaviri Elçin Məmmədov
18 sentyabr 2019-cu il saat 16:00	Xolmili kəndi (ərazi nümayəndəliyinin inzibati binası)	Lənkəran rayon prokuroru baş ədliyyə müşaviri Elçin Məmmədov
16 oktyabr 2019-cu il saat 16:00	Osaküçə kəndi (ərazi nümayəndəliyinin inzibati binası)	Lənkəran rayon prokuroru baş ədliyyə müşaviri Elçin Məmmədov
13 noyabr 2019-cu il saat 16:00	Nərimanabad qəsəbəsi (ərazi nümayəndəliyinin inzibati binası)	Lənkəran rayon prokuroru baş ədliyyə müşaviri Elçin Məmmədov
18 dekabr 2019-cu il saat 16:00	Vilvan kəndi (ərazi nümayəndəliyinin inzibati binası)	Lənkəran rayon prokuroru baş ədliyyə müşaviri Elçin Məmmədov

LƏNKƏRANDA POLİS İŞÇİLƏRİNİN PEŞƏ BAYRAMI QEYD OLUNUB

İyulun 2-də Lənkəranda polis işçilərinin peşə bayramı qeyd olunub.

Lənkəran Şəhər İcra Hakimiyyətinin rəsmiləri, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, Şəhər-Rayon Polis Şöbəsinin (ŞRPŞ) şəxsi heyəti əvvəlcə Heydər Əliyev Xatirə Parkında Ulu Öndərin abidəsini ziyarət edərək önünə gül dəstələri düzüblər.

Bayram tədbiri Lənkəran ŞRPŞ-nin akt zalında davam etdirilib.

Lənkəran ŞRPŞ-nin rəisi, polis polkovniki İslam Hümbətov Azərbaycan polisinin 101 illik çətin, məsuliyyətli və şərəfli fəaliyyəti barədə məruzə ilə çıxış edib. Bildirilib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin diqqət və qayğısı sayəsində Azərbaycan polisinin maddi-texniki bazası möhkəmləndirilib, təminatı və həyat şəraiti daha da yaxşılaşdırılıb. İctimai asayişin, dövlətçiliyimizin qorunmasında göstərdiyi xidmətlərinə görə polis əməkdaşları vətənin ən yüksək mükafatlarına layiq görülüblər.

Tədbirdə iştirak edən Lənkəran ŞİH başçısının birinci müavini Möhübbət Babayev polis əməkdaşlarını peşə bayramı münasibətilə təbrik edərək Azərbaycan polisinin şərəfli, tarixi bir yol keçdiyini xüsusi vurğulayıb. Eyni zamanda, Lənkəranda ictimai-siyasi sabitliyin, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsində, polis-vətəndaş münasibətlərinin möhkəmləndirilməsində ŞRPŞ-nin şəxsi heyətinin rolu bir daha diqqətə çatdırılıb.

Tədbirin sonunda bir qrup polis əməkdaşına Lənkəran ŞİH-nin Fəxri fərmanları təqdim olunub.

XOŞBƏXT HƏYAT, NURLU GƏLƏCƏK NAMİNƏ

Ölkəmizdə əhalinin sosial vəziyyəti ildən-ilə yaxşılaşır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin növbəti sərəncamları ilə dövlət qulluğunda çalışanların, eləcə də təhsil, səhiyyə, hüquq-mühafizə, hərbi qulluqçuların aylıq əmək haqları bu ilin sentyabr ayının 1-dən artırılıb. Əhalinin maddi rifah halının yaxşılaşması istiqamətində atılan humanist addım lənkəranlıların da sevincinə səbəb olub. Bununla əlaqədar redaksiyamızın poçtuna daxil olmuş məktublardan bir qismini təqdim edirik.

Məsuliyyətimiz daha da artıb

Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan dünyanın ən sürətlə inkişaf edən, yeniləşən, müasirləşən, demokratikləşən, beynəlxalq aləmdə böyük nüfuz qazanan dövlətlərindən birinə çevrilmişdir. Dövlət başçısının apardığı məqsədyönlü daxili və xarici siyasət sayəsində ölkə iqtisadiyyatı inkişaf etmiş və hər sahədə olduğu kimi, təhsil sahəsində də uğurlar artmışdır. Təhsildə uğurların qazanılmasında müəllimlərin əməkhaqlarının vaxtaşırı artırılması da mühüm rol oynamışdır. Onların əməkhaqlarının artırılması 2003-cü ildən bəri həmişə davamlı olmuşdur.

Prezidentin 18 iyun 2019-cu il tarixli əməkhaqlarının artırılması barədə sərəncamları ölkəmizin iqtisadi qüdrətinə inamın, xalqın rifah halının yaxşılaşdırılmasına yönələn istəyin yeni, daha bir parlaq təzahürüdür. Minimum əməkhaqqının 250 manata qaldırılması, dövlət ümumi təhsil müəssisələrində, eləcə də peşə məktəblərində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin aylıq vəzifə maaşlarının 20 faiz artırılması yüz minlərlə insanın əməkhaqlarının nəzərəçarpan dərəcədə qalxması deməkdir. Bu, dövlət başçısının daim xalqın yanında olmasının göstəricisidir. Göstərilən qayğı və diqqətə görə bizim təhsil işçiləri də ölkə Prezidentinə sonsuz minnətdarlıqlarını bildirirlər. Qayğıya cavab olaraq biz bundan sonra da gənc nəslin Heydər Əliyev irsinə, Azərbaycan dövlətçiliyinə sədaqət ruhunda təlim-tərbiyəsi üçün bütün qüvvə və bacarığımızı sərf edəcəyik.

Bülbül SADIQOV,
Zövlə kənd tam orta məktəbinin müəllimi

***

Dövlət qayğısı bizi daha yaxşı işləməyə ruhlandırır

Ölkə başçısının dövlətə və xalqa ləyaqətlə qulluq edən, ümumi tərəqqiyə münbit şərait yaradan fəaliyyət sahələrində çalışan insanların rifahının daha da yaxşılaşdırılmasına göstərdiyi diqqət və qayğıdan biz büdcədən maliyyələşən ümumtəhsil müəssisələrinin müəllimlərinə də pay düşüb. Dövlət məktəblərinin bilik və bacarıqları diaqnostik qiymətləndirmə ilə təsdiq olunmuş müəllimlərin əməkhaqqının artırılması haqqında ölkə Prezidentinin sərəncamı təhsilə və müəllimə Ümummilli Lider Heydər Əliyevin həmişə göstərmiş olduğu qayğının yüksək səviyyədə davam etdirilməsinin daha bir təzahürüdür.

Son 16 ildə ölkəmizdə ümumtəhsil ocaqları kütləvi şəkildə müasirləşdirilmiş, təlimin pedaqoji əsasları və texnoloji vasitələri tamamilə yeniləşdirilmişdir. Təhsil sahəsində geriliyi, neqativ halları aradan qaldırmaq üçün həyata keçirilən kompleks proqramlar və layihələr öz bəhrəsini verməkdədir.

Artıq müəllimlərimizin sabaha inam hissi artıb, onlar bilik və bacarıqlarını durmadan zənginləşdirir, savadlı, bilikli nəsil yetişdirmək vəzifəsini yüksək məsuliyyətlə gerçəkləşdirirlər. Heç şübhəsiz ki, pedaqoji işçilərin sosial durumunun yaxşılaşdırılması ilə bağlı davamlı tədbirlərin bu prosesdə təsirli rolu vardır. Son illər müəllimlərin əməkhaqqının dəfələrlə yüksəldilməsi onun məbləğini ölkə üzrə orta səviyyəyə və ondan da yuxarı həddə çatdırmağa imkan yaratmışdır. Əlbəttə, bu qayğı bizi daha yaxşı işləməyə ruhlandırır. Bu gün bir həqiqətlə yaşayırıq: dövlətin göstərdiyi müstəsna qayğını daha çox əməli işə çevirmək.

Dövlət başçısı ölkənin təhsil işçilərini hər yeni dərs ilində onlarda xoş əhval yaradan yeniliklərlə sevindirir. Bu il də biz müəllimlər yeni dərs ilinə böyük həvəslə başlayacağıq. Çoxdan arzusunda olduğumuz şəraiti yaratdıqlarına görə dövlət başçısı İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya iş yoldaşlarım adından razılığımızı bildiririk. Çalışacağıq ki, dövlətin bizə göstərdiyi qayğıya peşəkar fəaliyyətimizlə və siyasi fəallığımızla cavab verək.

Əkbər HEYDƏROV,
Xarxatan kənd tam orta məktəbinin tarix müəllimi

***

Dövlət başçısına minnətdarıq

Təhsil həmişə dövlət qayğısı ilə əhatə olunub. Çünki biz müəllimlərə gələcəyimizi tərbiyə etmək, ləyaqətli vətəndaş yetişdirmək kimi şərəfli vəzifə etibar olunub. İşimiz məsuliyyətli olsa da, təhsilə davamlı şəkildə göstərilən qayğı bizi həmişə ruhlandırır.

Qeyd edək ki, son illərdə təhsil işçilərinin əmək haqları bir neçə dəfə artırılıb. Bu, onu göstərir ki, müəllimlərin əməyi layiqincə qiymətləndirilir.

Budur, yenə sevinc içindəyik. Yenə əmək haqqımız artırılıb. Biz bu qayğıya əməli işimizlə cavab verəcəyik. Möhtərəm Prezidentimizə minnətdarlığımızı bildiririk.

Mirbəşir BABAYEV,
Kənarmeşə kənd tam orta məktəbinin müəllimi

***

Sevincimizin həddi yoxdur

Belə bir deyim var: bəşərin cismani ağrıları həkimlərin ürəyindən keçir. Hər dəfə bir ağır xəstə görəndə və ya onun müalicəsi ilə məşğul olanda özümüz də üzülürük. Onu həyata qaytaranda isə sevincimizin həddi-hüdudu olmur. Bununla demək istəyirəm ki, işimiz şərəfli olduğu qədər də məsuliyyətlidir.

Cənab Prezidentimizə öz minnətdarlığımızı bildiririk ki, əməyimizi layiqincə dəyərləndirir. Sevincimizin həddi-hüdudu yoxdur. Axı, əmək haqqımız dövlət başçısının Sərəncamı ilə yenə artırılıb. Təbii ki, bu da həkim əməyinə dövlət qayğısının bariz nümunəsidir.

Novruz ABDULLAYEV,
İstisu qəsəbə sahə xəstəxanasının baş həkimi

***

Sərəncam ürəyimizcə oldu

Minimum əmək haqqı alanlar arasında mədəniyyət işçiləri də vardı. Təbii ki, aylıq əmək haqqımız indiki bazar iqtisadiyyatının tələblərinə cavab vermirdi. Elə buna görə də möhtərəm Prezidentimiz cənab İlham Əliyevin dövlət müəssisələrində çalışanların aylıq əmək haqlarının artırılması ilə əlaqədar yeni sərəncamı ürəyimizcə oldu. Bu, biz mədəniyyət işçilərini ruh yüksəkliyi ilə işləməyə sövq edir.

Ölkəmizi tərəqqi yolu ilə irəli aparan, xalqımızın xoşbəxt həyatı üçün ardıcıl və davamlı tədbirlər həyata keçirən Prezidentimizə minnətdarıq.

Kamil CABBAROV,
mədəniyyət işçisi, Gərmətük qəsəbəsi

AİLƏNİN FORMALAŞMASINDA QARŞILIQLI MÜNASİBƏTLƏRİN ROLU

Nikah təsisatı ilə ailə təsisatı arasındakı prinsipial fərq bundan ibarətdir ki, nikah cinslər arasındakı münasibətləri tənzimləyir, ailə isə ərlə arvad, valideynlərlə uşaqlar arasındakı münasibətləri qaydaya salır. Məişət ər və arvad arasındakı qarşılıqlı münasibətlərin yeganə qəbul edilən, sosial cəhətdən bəyənilən və qanunla möhkəmləndirilən formasıdır.

İnsana xas olan bütün keyfiyyətlər kimi, sevgi də tarixi mahiyyət kəsb edir. Sevgi, nikah və ailə insanın və insan cəmiyyətinin təzahürü və inkişafı ilə birlikdə təşəkkül tapmış və inkişaf etmişdir.

Ən qədim zamanlarda cinsi münasibətlər nizamsız xarakter daşıyırdı və ailə mövcud deyildi. Hər bir qadın hər hansı kişiyə və bərabər səviyyədə hər bir kişi də hər hansı qadına məxsus idi. Bundan sonra cinsi münasibətlər valideyn və uşağın ayrılması, daha sonralar isə qardaş və bacının onlardan uzaqlaşması xətti üzrə inkişaf etmişdir.

Qəbilə cəmiyyətində kişi və qadınlar müxtəlif qəbiləyə mənsub idilər. Bir qəbilədən olan bütün qadınlar digər qəbiləni təmsil edən bütün kişilərin potensial qadını idi. Ərlə arvad öz qəbilələrində yaşayırdılar. Uşaqlar yalnız anasını tanımaqla, onun qəbiləsinə və ya ananın ailəsinə - ana xətti ilə yaxın qohumlar qrupuna daxil olurdular. Sonra qrup halında kəbin çərçivəsində yaranan təsadüfi əlaqələr qoşa kəbinin və möhkəm olmayan ailə cütlüyünün yaranmasına gətirib çıxartdı. Ailə cütlüyü hələ öz təsərrüfatına malik deyildi və buna görə cəmiyyətin təsərrüfat özəyi hesab olunmurdu. Ailənin inkişafının bu ilk mərhələsi üçün ərlə arvadın bərabərliyi, inkişaf etmiş madərşahlıqda isə qadının ailə başçısı kimi çıxış etməsi nəzərə çarpırdı: qadın əməyi kişi əməyindən effektli idi. Əməyin "kişiyə xas olan" növünün (maldarlıq, əkinçilikdə qoşqu qüvvəsinin və daha mürəkkəb alətlərin tətbiqi) iqtisadi həyatda həlledici rolundan sonra, cəmiyyətdə və ailədə madərşahlıq patriarxatla (ailəyə patriarxın başçılıq etdiyi qəbilə cəmiyyəti forması) əvəz olundu. Patriarxal ailə və onunla birlikdə monoqamiya (təkarvadlılıq) yarandı. Qadın kişinin ailəsində onunla birlikdə yaşamağa başladı. Uşaqlar atanın mülkiyyətinin və qadının varisi oldu. Xüsusi mülkiyyətin və varislik təsisatının təzahürü ilə iqtisadi səbəblər üzündən qadının kişiyə möhkəm sədaqəti üçün təminat yaradıldı. Həm dövlət qanunları, həm əxlaq normaları və eləcə də dini qaydalar qadının ailədə kişinin hakimiyyətinə tabe edilməsinə istiqamətləndi. Ailənin möhkəmliyini təmin etmək üçün qadının nikahı pozması qadağan olundu. Əgər əvvəllər qız özünə ər seçə bilərdisə və kəbin qarşılıqlı razılığa əsaslanırdısa, indi nikah münasibətləri tez-tez alqı, satqı, cehiz problemləri ilə ləğv edilirdi. Bununla yanaşı uşaqların tərbiyəsi və taleyi üçün valideynlərin məsuliyyəti əhəmiyyətli dərəcədə artdı, ərlə arvadın qarşılıqlı borcu, ailə şərəfi və ləyaqəti hissi kimi əxlaqi başlanğıc formalaşmağa başladı.

Quldarlıq cəmiyyətində qullar ailə qurmaqdan tez-tez məhrum edilirdilər. Quldarlar arasında təkarvadlılıq bəzən çoxarvadlılıqla əvəz olunurdu, qadınlar isə cinsi əxlaqsızlığa (fahişəliyə) düçar edilirdi.

Feodalizm şəraitində ailə münasibətləri, nikah cəmiyyətin silki iyerarxiyasının güclü təsirinə məruz qaldı. Bütövlükdə kişinin ailədə hakimiyyəti bir o qədər qəddarlıq kəsb etmirdi. Qadın ev təsərrüfatının təşkilində və uşaqların tərbiyəsində müstəqillik əldə edir, lakin onun aqibəti ağır olurdu. Feodalizm və sonralar kapitalizmdə kəndli ailəsində kişi və qadın arasında münasibətlər ziddiyyətli xarakter daşıyırdı: iqtisadi mənafe əmək əxlaqı ilə, qadına – əməkçi qadına, evdar qadına hörmətlə əlaqələndirilirdi.

Kapitalizm ər-arvad həyatının bütün dövrü ərzində ilk dəfə ailənin böyük iqtisadi müstəqilliyi istiqamətində inkişafını şərtləndirdi: hətta hazırda bir sıra ölkələrdə qadının ona məxsus olan kapitalı saxlamaq hüququ mövcuddur.

Nikah kişi ilə qadının hüquq və vəzifələrini, onların hər birinin öz uşaqlarına, qohumlarına və bütövlükdə cəmiyyətin münasibətini müəyyən edən formal göstərişlərin məcmusunu səciyyələndirir, kişi ilə qadın arasında cəmiyyət tərəfindən təsdiqlənən münasibətlər formasıdır.

Nikahın bağlanması həm də adətin, mərasimin məcmuu kimi səciyyələnir. Müasir Avropa mədəniyyətində belə adətlər özündə tanışlığı, nişanlanmanı, nişan üzüyünü qarşılıqlı əldə etməyi, evlənməyin ilk ayının qeyd edilməsini və s. təcəssüm etdirir. Belə halda nikah davranışın bəzi qaydalarını, məsələn ər və arvadın bir-birinə sədaqətini, kişinin bütün həyatı boyu arvadı müdafiə etməyə borclu olmasını və digər davranış qaydalarını nəzərdə tutur. Nəhayət, nikah qanunun ayrılmaz tərkibir: nikahın qeyd edilməsi, üzürlü səbəbdən boşanmaq hüququ, nikahın bağlanması zamanı hiyləgərlik, aldatma hiss olunarsa nikahın saxtalığını təsdiqləmək hüququ, valideynlərin razılığı və s.

Nikah münasibətləri hüquq və mədəniyyət normaları ilə tənzimlənir. Hüquqi normalar mülkiyyətə sahib olmaq, ərlə arvadın uşaqlara və birbirinə münasibətdə maddi vəzifələri, nikahın bağlanmasında minimum yaş həddi kimi məsələləri və bir neçə digərlərini tənzimləyir. Cəmiyyətdə həmçinin, nikahın pozulmasını tənzimləyən normalar kompleksi nəzərdə tutulur. Onlar nikahın pozulması üçün hüquqi əsasları, boşanma qaydalarının xarakterini, keçmiş ər və arvadın maddi baxımdan və uşaqların tərbiyəsi ilə bağlı hüquq və vəzifələrini, boşanmadan sonra mülkiyyətə sahib olmasını müəyyənləşdirir.

Nikahın bir neçə növü vardır. Dini təsisatın iştirakı olmadan müvafiq dövlət hakimiyyəti orqanlarında rəsmiləşdirilən nikah mülki nikah hesab olunur. Bunu bəzən qeydə alınmayan nikah adlandırırlar. Dövlət belə nikahı birgə yaşamağa bərabər tutur, başqa sözlə, uzun müddətli və təsadüfi əlaqə kimi baxır. Qeydə alınmamış nikah pozulduqda və ya ər və arvaddan biri öldüyü halda varislik və mülkiyyətin bölüşdürülməsi məsələsinin həllində hüquqi çətinlik yaranır. Qeydə alınmayan nikah uşaqların tez-tez ağır vəziyyətə düşməsinə səbəb olur.

Azyaşlı qızların zorla ərə verilməsi uşaq nikahı adlanır. Yaşı 18-dən aşağı olan gənclərin qanuni kəbin kəsdirməsi ciddi səbəb yarandığı təqdirdə (evdə ağır xəstənin olması, hamiləlik və ya gənclərin birlikdə yaşamaları) mümkündür. Erkən nikahın qeyri-sabitliyi uşağın erkən yaşlarda təzahür edən problemləri, iqtisadi mürəkkəblik və arzuladığı tərəfmüqabil haqqında tam təsəvvürün olmaması ilə bağlıdır.

Boşanma halları ən çox ər və arvad həyatının ilk beş ilinə təsadüf edir. Ailədə uşaqların mövcudluğu nikahın möhkəmliyinə birbaşa təsir göstərir. Uşaqların sayı üçdən çox olan ailələrdə boşanma faizi orta səviyyədə xeyli aşağıdır. Boşanma halı müəyyən yaş həddində də spesifik tərzdə nəzərə çarpır. Boşanma həmçinin, daha çox uşaqsız ailələrdə nəzərə çarpır. Məsələn, 2018-ci ildə Azərbaycanda uşaqların olmaması səbəbindən 785 nikahın pozulması qeydə alınıb. 2017-ci ildə isə bu səbəbdən nikahların pozulması halları 588 olub. Ölkəmizdə nikahın pozulmasının əsas səbəbləri ər-arvadın birbiri ilə xasiyyətlərinin tutmaması, xəyanət, qısqanclıq, maddi çətinlik, mənzilin olmaması, ailədaxili zorakılıq, ailə münasibətlərinin pozulması, uşaqların olmaması, sərxoşluq, narkomaniya, xəstəlik və digər hallarla bağlıdır.

Ötən əsrin 70-ci illərindən başlayaraq Ümummilli Liderimiz Heydər Əliyevin diqqət və qayğısı ilə milli dəyərlərimizin qorunub yaşadılması istiqamətində həyata keçirilən tədbirlərin tərkib hissəsi olaraq, ailə dəyərlərinə qayğı da diqqət mərkəzində saxlanılmışdır. Ulu Öndərimizin ölkəmizdə yenidən siyasi hakimiyyətə qaydışından sonra cəmiyyətdə qadınların rolunun artırılması, qadınlarla kişilər arasında bərabərliyin gerçəkləşdirilməsi, qadın, ailə problemlərinin həlli istiqamətində də mühüm işlər görülmüş, bu sahəni tənzimləyən qanunvericilik bazası yaradılmışdır. Azərbaycan Respublikasının Konstitusiyasında ailə cəmiyyətin əsas özəyi kimi təsbit edilmişdir. 1999-cu il dekabrın 28-də qəbul edilən Azərbaycan Respublikasının Ailə Məcəlləsi isə ailə münasibətlərinin tənzimlənməsini özündə əks etdirən əsas hüquqi sənəddir. Ailə Məcəlləsində ailənin möhkəmləndirilməsi zərurəti, ailə münasibətlərinin qarşılıqlı məhəbbət və hörmət hissləri əsasında qurulması, ailənin işlərinə kənar şəxslərin müdaxiləsinin yolverilməzliyi, ailə üzvlərinin ailə qarşısında məsuliyyəti və onların hüquqlarının maneəsiz həyata keçirilməsi öz əksini tapmışdır. "Ailə xüsusi, mürəkkəb insan münasibətləri aləmidir. Burada böyük bir nəzakət, həssaslıq, şəxsiyyətin ləyaqətinə, ailənin mənafeyinə hörmət və ehtiram lazımdır", – deyən Ulu Öndər Heydər Əliyev ailə institutunun inkişafına həmişə xüsusi diqqət yetirmişdir.

Ümummilli Liderimizin yolunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən sosial-iqtisadi siyasət ailələrin rifahının yaxşılaşdırılmasına, sosial müdafiəsinin gücləndirilməsinə, uşaq və yeniyetmələrin həm fiziki, həm də mənəvi cəhətdən güclü nəsil kimi formalaşdırılmasına, ümumən, milli genefondumuzun möhkəmlənməsinə xidmət edir. Ailə dəyərlərinə böyük həssaslıqla yanaşan dövlət başçısı demişdir: "Ailə dəyərləri xalqımız üçün həmişə çox doğma olub, çox əziz olub və ailə dəyərləri, əslində, bizim milli dəyərlərimizdir. Biz ümumbəşəri dəyərləri bölüşürük, ancaq bizim üçün əsas dəyərlər Azərbaycanın milli dəyərləridir. Bu baxımdan, əgər tarixə də nəzər salsaq, görərik ki, xalqımızın yaşaması üçün, öz mənliyini, qürurunu qoruması üçün ailə dəyərləri, milli dəyərlər əvəzolunmaz rol oynamışdır. Ölkəmizin inkişafı, müstəqilliyimizin daha da möhkəmləndirilməsi üçün və milli dəyərlərin tam şəkildə bərqərar edilməsi üçün ailə dəyərləri daim yüksəklərdə olmalıdır".

Azərbaycan ailəsi, hər şeydən əvvəl, milli adət-ənənələrimizi özündə yaşatmalı, övladlarımız dünyaya gəldikləri gündən milli-mənəvi dəyərlərimizlə tərbiyə olunmalıdırlar. Böyüyə hörmət, milli dəyərlərə bağlılıq bu tərbiyənin əsasını təşkil edir. Mədəniyyət, qarşılıqlı hörmət və bu hörmətdən doğan davranış qaydaları isə ailə mənəviyyatının özülüdür. Ona görə də xalqımıza məxsus olan ailə dəyərlərinin qorunub yaşadılması və möhkəmləndirilməsi hər bir vətəndaşın üzərinə düşən vacib vəzifədir

Əzizulla ŞÜKÜROV,
Lənkəran Rayon Qeydiyyat Şöbəsinin rəisi,
ədliyyə müşaviri

Layihənin istiqaməti: "Ekologiya və ətraf mühitin mühafizəsi"

SU HƏYATIMIZDIR

Bəs onun qədrini bilirikmi?

Təbiətin ölkəmizə bəxş etdiyi zəngin sərvətlərə xüsusi qayğı ilə yanaşmaq, belə misilsiz xəzinələri bəşəriyyətin gələcəyi naminə qorumaq üzərimizə düşən başlıca vəzifələrdəndir.

Ümummilli Lider Heydər ƏLİYEV

Evimizin qarşısından su kanalı keçir. Onu təqribən 45-50 il öncə tərəvəz sahələrinin və çay plantasiyalarının suvarılmasından ötrü qazıblar. Mənbəyini Xanbulançay dəryaçasından götürən bu kanalın bir ümdə vəzifəsi də sel sularını Xəzər dənizinə ötürməkdən ibarət olub. Yadımdadır, biz bir dəstə kənd uşağı isti yay günlərində suyu bumbuz və göz yaşı kimi dumduru olan bu kanalda çimməkdən doymazdıq. Bundan əlavə, kanaldan çıxan sıf, çəki, külmə kimi dadlı, ləzzətli balıq növləri də neçə-neçə ailənin süfrəsinin bəzəyinə çevrilərdi. Çay plantasiyaları məhv edildikdən və sovxoz sistemi ləğv olunduqdan sonra bu su kanalı da özünün əsas funksiyasını demək olar ki, itirmiş oldu. Yerli sakinlər məişət tullantılarını, süfrələrinin artığını, müxtəlif cür zir-zibili kanala tökməklə onun saf suyunu lilə, lehməyə döndərdilər. İndinin özündə də bu proses davam etməkdədir: təkcə bizim kəndin deyil, hətta ətraf yaşayış məntəqələrinin sakinləri kisələrlə ölü quşları, müxtəlif zir-zibili gətirib kanala atırlar. Bir müddət sonra isə üfunət iyindən hətta evin içində də oturmaq olmur. Sözün düzü, mövcud vəziyyət barədə əlaqədar qurumların nümayəndələri də halidirlər. Amma nə faydası – heç kəs əməli bir tədbir görmür...

Əslində isə çirklənməyə məruz qalan təkcə evimizin qarşısından keçən su kanalı deyil. Azərbaycanın digər bölgələrində də əhali və ayrı-ayrı müəssisələr tərəfindən çaylara və dənizə hər gün tonlarla məişət və sənaye tullantıları atılır. Nəticə etibarı ilə çirkli su tədricən buxarlanaraq atmosferə qarışır. Bu isə torpaqların deqradasiyaya uğramasına və şoranlaşmasına, karbohidrogenlərin və digər zərərli maddələrin nəfəs yolları ilə insan orqanizminə keçərək bronxit, katar, pnevmaniya və xərçəng kimi qorxulu xəstəliklərin baş verməsinə səbəb olur. Birləşmiş Millətlər Təşkilatının məlumatına görə, xərçəng xəstəliyinin səbəblərinin 60-90%-i məhz ətraf mühitin, o cümlədən suyun çirkləndirilməsi ilə bağlıdır. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin hesablamalarına görə, ölkə üzrə təkcə Abşeron yarımadasında antropogen təsirlər nəticəsində çirklənmiş ərazilərin ümumi sahəsi 33,3 min hektardır ki, bunun da 10,6 min hektarı neft və neft məhsulları ilə çirklənməyə məruz qalıb. Bundan başqa, yarımadada 3325 hektar ərazini əhatə edən tullantı və lay suları ilə çirklənmiş 200-ə qədər göl və gölməçələr də mövcuddur.

Bəs görəsən suyu çirkləndirən, murdarlayan şəxslərin onun insan həyatındakı əvəzsiz yeri barəsində hər hansı məlumatı varmı? Hər halda qısaca da olsa bu haqda söz açmağı vacib hesab edirik.

Su insan həyatı üçün oksigendən sonra ən əhəmiyyətli element sayılır. İnsan yemək yemədən həftələrcə yaşaya bildiyi halda, susuz ancaq bir neçə gün yaşaya bilər. Qanın 92%-ini, sümüklərin 22%-ini, beynin və əzələlərin 75%-ini su təşkil edir.

Cəmiyyətin inkişaf tempindən asılı olaraq insan tələbatının ödənilməsi üçün müxtəlif həcmdə su işlədir. Su həmçinin sənaye müəsissələrinin işləməsində, əkinçilikdə, suvarmada, nəqliyyatın inkişaf etdirilməsində, səhiyyə və turizmdə əsas təbii komponent və həlledici təminat vasitəsi hesab olunur. Azərbaycanda şirin su ehtiyatları, xüsusilə çay suları və yeraltı su mənbələrindən səmərəli istifadə edilərsə, ehtiyaclarımızı hələ uzun illər tam ödəyə bilərik.

Amma çox təəssüf ki, bir sıra yaşayış məntəqələrində içməli su və suvarma suları ilə əlaqədar kifayət qədər problem yaşanmaqdadır. Su obyektləri, yuxarıda qeyd etdiyimiz kimi, kanalizasiya və məişət tullantılarının yığılması zamanı istifadə olunur. Bütün bunlar isə öz növbəsində həm ətraf suların çirklənməsinə, həm də ümumi sanitar sistemin korlanmasına gətirib çıxarır.

Ətraf mühitin, o cümlədən su hövzələrinin mühafizəsi konsepsiyası olduqca aktual məsələdir. Ölkəmizdə təbiətin mühafizəsi məsələlərinin elmi həllinə hələ 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən başlanılıb və bu, sonralar Azərbaycan SSR-i dövründə dövlət siyasəti səviyyəsinə qaldırılıb. Sovet hakimiyyəti illərində isə Azərbaycan ekoloji sınaq meydanına çevrilib. Ölkəmiz müstəqillik qazandıqdan sonra iqtisadiyyatın bütün sahələrində ekoloji mühafizə amilinə diqqət artırılıb. Ekologiya üzrə yaradılmış bir çox özəl təşkilatlar – Təbiəti Mühafizə Cəmiyyəti, Yaşıllar Hərəkatı, Ekoloji İttifaq, Ekoloji Bərpa Mərkəzi və s. ətraf mühitin mühafizəsi sahəsində dövlət təşkilatlarına kömək etməklə yanaşı, həmçinin təbii mühitin mühafizəsi və sağlamlaşdırılması istiqamətində də məqsədyönlü işlər görürlər. Artıq bütün elmi tədqiqat institutlarında ekoloji problemlərin həlli aparıcı fəaliyyət sahəsinə çevrilib. Mövcud ekoloji problemləri həll etmək məqsədilə Azərbaycan Milli Elmlər Akademiyasının Ekologiya və Coğrafiya institutlarında təbiəti mühafizə və ekologiya ilə bağlı şöbələr, Xəzər Mərkəzi, Bakı Dövlət Universitetində Ətraf mühitin mühafizəsi kafedrası, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (2001-ci ildə yaradılıb) nəzdində müvafiq elmi təşkilatlar və digər qurumlar yaradılıb.

İnsafən deyilməlidir ki, ekoloji vəziyyətin sağlamlaşdırılması məqsədilə ölkəmizə sovet dövründən miras qalmış mövcud su ehtiyatlarının çirklənməsinin qarşısının alınması, biomüxtəlifliyin qorunması, yaşıllıqların artırılması, neft və digər tullantılarla çirklənmiş torpaqların təmizlənməsi, bərk sənaye və məişət tullantılarının, o cümlədən təhlükəli tullantıların tələb olunan səviyyədə utilizə olunmasının təmin edilməsi istiqamətlərdə müvafiq işlər görülməkdədir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) bilavasitə təşəbbüsü və iştirakı ilə son dövrlərdə bir sıra hüquqi normativ sənədlər, o cümlədən "Azərbaycan Respublikasının Su Məcəlləsi", "Bələdiyyələrin su təsərrüfatı haqqında Azərbaycan Respublikasının Qanunu", "Su təchizatı və tullantı suları haqqında Azərbaycan Respublikasının Qanunu" Milli Məclis tərəfindən qəbul edilərək icra mexanizminə çevrilib. Bundan əlavə, ekoloji fəlakətlərin qarşısının alınması, mövcud ekoloji problemlərin həll olunması və ekoloji duruma hər hansı mənfi təsirlərin məhdudlaşdırılması məqsədilə dövlətimiz tərəfindən möhkəm qanunvericilik bazası yaradılıb. Təsadüfi deyil ki, 18 mart 2009-cu il tarixdə ölkəmizdə referendum (Ümumxalq səsverməsi) keçirilən zaman Azərbaycan Respublikasının Kostitusiyasının 39-cu maddəsinə belə bir bənd əlavə edilib: "Heç kəs ətraf mühitə, təbii ehtiyatlara qanunla müəyyən edilmiş hədlərdən artıq təhlükə törədə və ya zərər vura bilməz". Bu isə o deməkdir ki, bütün ölkə vətəndaşları, müəssisə və təşkilatlar, özəl qurumlar qanunvericiliklə müəyyən edilmiş ekoloji standart və normalara əməl etməyə borcludur. Əks təqdirdə, bu tələblərə riayət etməyən hüquqi və fiziki şəxslər üçün qanunvericilikdə ciddi inzibati, mülki və hətta cinayət məsuliyyəti nəzərdə tutulub. Bundan əlavə, hər kəs dərk etməlidir ki, təbiətin ahəngdarlığını pozanlar, ona lüzumsuz zərbə vuranlar öz gələcəkləri üçün, gələcək nəslin sağlamlığı üçün məsuliyyət daşıyırlar.

Fikrimizcə, ictimai təbliğat vasitələrindən istifadə etməklə ölkə əhalisinin, xüsusən gənc nəslin, o cümlədən məktəblilərin ekoloji cəhətdən savadlanması vacib şərtlərdəndir. Axı, yetişməkdə olan nəslimizə yaşıllıq, təmiz su, quşların oxuması, yerdəki bütün gözəlliklər lazımdır. Doğma yurdun təbiətini, onun flora və faunasını qorumaq, yaşıllıq yaratmaq, ağac əkmək və becərmək kimi vərdişlər uşaqlara hələ kiçik yaşlarından aşılanmalıdır. Və nə yaxşı ki, ETSN-nin müvafiq qurumları tərəfindən son dövrlərdə bu istiqamətdə ardıcıl işlər görülməkdədir. Ölkənin ayrı-ayrı bölgələrində suyun əhəmiyyəti və ondan rasional istifadə barədə məlumat – maarifləndirmə aksiyalarının keçirilməsi, çayların və kanalların məcra və sahillərində təmizlik-abadlıq işlərinin aparılması, eləcə də sahillərin möhkəmləndirilməsi və eroziyanın qarşısının alınması məqsədilə ağacların əkilməsi, yaşıllıqların salınması məhz bu qəbildəndir.

O da qeyd olunmalıdır ki, Azərbaycan Prezidenti İlham Əliyevin bilavasitə sədrliyi ilə ekoloji problemlərin müzakirəsinə həsr olunmuş ümumrespublika müşavirələrinin keçirilməsi, ətraf mühitlə bağlı qəbul olunmuş dövlət proqramlarının icrasına göstərilən diqqət, mövcud ekoloji problemlərin daha səmərəli həlli məqsədilə müvafiq sərəncamların imzalanması və s. bu sahənin prioritet məsələlər sırasına qaldırılmasına parlaq nümunədir.

Məlum olduğu kimi, Azərbaycan əhalisinin içməli su mənbələri sayılan Kür və Araz transsərhəd çaylarında ekoloji vəziyyətin gərginliyi bu gün ciddi problemə çevrilib. Respublika vətəndaşlarının 70 faizinin içməli su kimi istifadə etdiyi bu çaylar öz mənbəyini qardaş Türkiyə ərazisindən götürür. Araz çayı Ermənistan və İran ərazisindən, Kür isə Gürcüstandan keçərək ölkəmizə daxil olur. Türkiyə ərazisindən çay təmiz şəraitdə sərhədi keçsə də, Ermənistan və Gürcüstan ərazisində çirklənmələr yüksək faiz təşkil edir. Araz çayından isə Qacaran və Qafan molibden dağ-mədən işlərinin bütün axıntıları, İrəvanın və Tiflisin kanalizasiya suları bu çaylara buraxılır. ETSN-nin müvafiq strukturunun apardığı mütəmadi monitorinqlərin nəticəsinə görə, Ermənistan və Gürcüstanda çirklənməyə məruz qalan Kür-Araz transsərhəd çaylarındakı vəziyyət daha dəhşətlidir. Bu çaylar boyu yerləşən rayonlarımızın əhalisi uzun illərdən bəri lilli-palçıqlı suyu gah zəy deyilən maddə ilə, gah da daşdan süzməklə içmək məcburiyyətində qalıb. Heç şübhəsiz ki, bu da lazımi tələbatı tam ödəmir. Elə bunları nəzərə alan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Kür və Araz çayları boyu yaşayış məntəqələrində əhalinin ekoloji cəhətdən təmiz içməli suya olan tələbatının ödənilməsi layihəsinin icrası məqsədilə 2007-ci ildə "Əhalinin ekoloji cəhətdən təmiz su ilə təminatının yaxşılaşdırılması ilə əlaqədar bəzi tədbirlər haqqında" sərəncam imzalayıb.

Bu sərəncamdan irəli gələn vəzifələr fəal şəkildə yerinə yetirilməklə, Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən 20 rayonun 268 kəndində modul tipli qurğular quraşdırılaraq, həmin yaşayış məntəqələrinin 450 mindən artıq əhalisi içməli su ilə təmin edilib. Yaxın illərdə ölkə üzrə ümumilikdə 800 min əhali təmizləyici qurğular vasitəsilə alınan sudan istifadə etmək imkanı qazanacaq.

Xəzərin suyunun təmizlənməsi və ondan istifadə məsələsi də gündəmdə duran vəzifələrdəndir. Artıq Xəzərdə suyun şirinləşdirilməsi üçün müvafiq qurğular quraşdırılır. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti tərəfindən Çilov adasında belə qurğuların quraşdırılması ilə ərazidə yaşayan əhali və orada fəaliyyət göstərən müəssisələr həmin sudan istifadə etmək imkanı qazanıblar. Bundan əlavə, 2010-cu il dekabrın 28-də ölkə Prezidentinin xeyir-duası ilə nəhəng Oğuz-Qəbələ-Bakı içməli su kəmərinin istifadəyə verilməsini də həm təbiətə, həm də xalqımıza, onun sağlamlığına böyük qayğı kimi dəyərləndirmək lazımdır.

Göründüyü kimi, ölkəmizdə su mənbələrinin çirkləndirilməsinin qarşısının alınması istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər görülür. Lakin bunlarla arxayınlaşmaq olmaz. Sudan israfçılıqla istifadə edənlərə, çirklənməni doğuran səbəblərə qarşı daim mübarizə aparılmalıdır. Əlbəttə, bu mübarizə ümumxalq işidir və heç kəs bu müqəddəs işdən kənarda qalmamalıdır.

Ağaddin BABAYEV,
"Lənkəran" qəzetinin müxbiri

(Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün)

LƏNKƏRANDA "GENDER BƏRABƏRLİYİ VƏ MEDİA AZADLIĞI" MÖVZUSUNDA TƏDBİR KEÇİRİLİB

Avropa Şurası, Obmudsman Aparatı və Mətbuat Şurası Lənkəran və qonşu rayonlarda çalışan KİV və QHT nümayəndələri üçün "Gender bərabərliyi və media" mövzusunda informasiya sessiyası keçirib. Sessiyanın açılışında Avropa Şurasının Bakı Ofisinin nümayəndəsi və layihənin rəhbəri Pərvanə Bayramova çıxış edərək bildirib ki, bu il 70 yaşı olan Avropa Şurasının ölkələri arasında ilk dəfədir ki, jurnalistlərin peşə davranışı qaydalarında gender bərabərliyi prinsipi geniş aspektdə ifadə olunub: "Layihənin əsas məqsədi mediada və media vasitəsilə Azərbaycanda gender bərabərliyini təşviq etməkdir. Yeri gəlmişkən, Azərbaycan Demokratik Respublikası müsəlman dövlətləri arasında ilk, Avropada isə birinci dövlətlərdəndir ki, qadınlara bərabərlik hüququ verib".

Azərbaycan Mətbuat Şurası sədrinin müavini, Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərli layihənin həyata keçirilməsi məqsədlərindən danışıb: "İstəyirik ki, bu sahənin modern əsaslarla işıqlandırılmasında jurnalistlərin bilik və bacarıqları artırılsın".

Müstəqil ekspert Ələsgər Məmmədli gender bərabərliyi və media azadlığı sahəsində Avropa Şurası standartları və Azərbaycan qanunvericiliyi, Ombudsman Aparatının rəhbəri, hüquq üzrə fəlsəfə doktoru Aydın Səfixanlı Gender bərabərliyi və media azadlığı sahəsində qabaqcıl təcrübələr, vəkil Adil İsmayılov məhkəmə mübahisələri haqda fikirlərini bölüşüblər. Qadın Jurnalistlər Assosiasiyasının prezidenti Sevil Yusifova gender sahəsində nailiyyətlər və problemlərdən, "Astara" qəzetinin baş redaktoru Fəridə Ağazadə isə regionlarda qadın jurnalistlər və medianın hazırki durumundan danışıblar.

Məruzə və çıxışlarda media nümayəndələrinin bu istiqamətdə peşəkarlığının daha da artırmasının vacibliyi vurğulanıb. Xüsusilə qeyd olunub ki, gender bərabərliyinin təmin olunmasında media hələ çox iş görməlidir. Belə ki, media həm özünü, həm də başqalarını dəyişməlidir.

Tədbirdə vurğulanıb ki, Avropa Şurası 1 mart 2018-ci ildən etibarən "Azərbaycanda gender bərabərliyi və media azadlığı" layihəsinə başlayıb. Layihə çərçivəsində yerli və beynəlxalq ekspertlərin iştirakı ilə "Azərbaycan Jurnalistlərinin peşə davranışı qaydaları" gender bərabərliyi perspektivində nəzərdən keçirilib. Qaydalara əlavə etmək üçün "Ayrı-seçkiliyə yol verilməməsi və gender bərabərliyi prinsipi"nin mətni hazırlanıb. Mətnə əsasən, jurnalist ayrı-seçkiliyə yol verməməli və gender bərabərliyi prinsiplərinə hörmət etməli, cinsi ayrı-seçkilik yaradan və ya cinsi nifrətə çağıran üslubdan uzaq durmalı, xəbərin məzmunu bilavasitə tələb etmirsə, şəxsin cinsi mənsubiyyətini vurğulamamalı və ya fərqləndirməməlidir. Eləcə də, prinsipdə gender stereotiplərinin təbliğ edilməməsi, gender-əsaslı zorakılıq hallarının mediada həssaslıqla işıqlandırılması, kişi və qadın jurnalistlərə bərabər hüquqlar və imkanların təmin olunması öz əksinin tapıb.

İyunun 20-də gerçəkləşən tədbirə Lənkəranın 40-a yaxın media və QHT nümayəndəsi qatılıb. İyunun 21-də isə informasiya sessiyası Astara, Lerik, Masallı, Yardımlı, Cəlilabad və Biləsuvar rayonlarının KİV və vətəndaş cəmiyyəti nümayəndələrinin iştirakı ilə keçirilib.

Natiqə AĞAYEVA

ŞƏHİD AİLƏLƏRİ VƏ QARABAĞ QAZİLƏRİ İLƏ GÖRÜŞ

"Yayım" Assosiasiyası İctimai Birliyinin təşkilatçılığı, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə "Qarabağ savaşında əlil olan qazilərimizin tanınması və gənclərin vətənpərvərlik ruhunda tərbiyəsinə dair tədbirlərin təşkili" layihəsi çərçivəsində Lənkəran rayonunun şəhid Ədalət Hüseynov adına Vilvan kənd tam orta məktəbində Qarabağ müharibəsi veteranları, əlilləri və şəhid ailələrinin üzvləri ilə görüş keçirilib.

Tədbirdən öncə şəhid Ədalət Hüseynovun məktəbin foyesindəki büstünün önünə tər çiçəklər düzülüb.

Azərbaycan Respublikasının Dövlət Himni ilə açılan görüşü giriş sözü ilə açan məktəbin direktoru Əliniyaz Ağayev müəllim və şagird kollektivi adından "Yayım" Assosiasiyasına və Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasına təşəkkürünü bildirib.

Sonra "Yayım" Assosiasiyası İctimai Birliyinin sədri Yaşar Zeynalov icra olunan layihənin əhəmiyyəti və məqsədi barədə məlumat verərək görüşdə iştirak edən Qarabağ veteranlarını iştirakçılara təqdim edib.

Görüşdə çıxış edən Qarabağ veteranlarından Malik Əhədov, Zəki Əhədli, İlkin Əkbərov və digərləri ölkəmizdə müharibə iştirakçılarına və şəhid ailələrinə göstərilən dövlət qayğısından danışaraq gənclərə tövsiyələrini çatdırıblar.

Daha sonra Lənkəran Şəhər Təhsil Şöbəsinin aparıcı mütəxəssisi Cəmil Axundzadə, Azərbaycan Yazıçılar Birliyi Lənkəran bölməsinin sədr müavini, yazıçı-publisist Ağamir Cavad çıxış edərək gəncləri Vətəni sevməyə, onun uğrunda mübarizəyə həmişə hazır olmağa çağırıblar.

Sonda məktəblilərin ifasında vətənpərvərlik mövzusunda ədəbi-bədii kompozisiya təqdim olunub.

Məktəb kitabxanasına və görüşdə iştirak edən şagirdlərə "Yayım" Assosiasiyası tərəfindən vətənpərvərlik ruhunda qələmə alınmış 100-ə yaxın bədii-publisistik kitab və məktəb ləvazimatları hədiyyə edilib.

Barat KƏRİMOV

LƏNKƏRANDA ÇAYÇILIĞIN VƏ SİTRUSÇULUĞUN İNKİŞAFINA DAİR ELMİ-PRAKTİK SEMİNAR KEÇİRİLİB

Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzi (AEİMM), Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutu (MÇETİ), Lənkəran Regional Aqrar Elm İnformasiya Mərkəzi və AMEA-nın Lənkəran Regional Elmi Mərkəzinin təşkilatçılığı ilə "Azərbaycanda çayçılığın və sitrusçuluğun inkişaf potensialı" mövzususunda elmi-praktik seminar keçirilib.

Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun direktoru, MÇETİ-nin Lənkəran filialının və AMEA-nın Lənkəran Regional Elmi Mərkəzinin əməkdaşları, FAO-nun Roma ofisinin nümayəndələri, fermerlər və digər müvafiq qurumların rəhbərlərinin iştirak etdikləri tədbiri giriş sözü ilə açan Lənkəran Regional Elmi Mərkəzinin direktoru Teyyub Rzayev seminarın məqsəd və vəzifələrindən danışıb.

Kənd Təsərrüfatı Nazirliyinin Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun direktoru İlham Qurbanov çıxışında ölkəmizdə aqrar sahənin elmi təminatının daha da yaxşılaşdırılması istiqamətində görülən işlər, Azərbaycanda çayçılığın inkişafına dair 2018-2027-ci illər üçün Dövlət proqramı barədə söz açıb.

Daha sonra Meyvəçilik və və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun direktor müavini Vahid Əliyevin "Azərbaycanda çyçılığın mövcud vəziyyəti", MÇETİ-nin doktorantı Cahani Nüsrətzadənin "Çay plantasiyalarının salınması texnologiyası, MÇETİ-nin Lənkəran çay filialının aparıcı elmi işçisi Fərman Abdullayevin "Modern çay tinglərinin yetişdirmə texnologiyası" və MÇETİ-nin laboratoriya müdiri Faiq Əliyevin "Çay və sitrus bitkilərinin əsas zərərvericiləri və xəstəlikləri" mövzularında çıxışlarl dinlənilib.

Müzakirələrdən sonra Lənkəran çay filialında AMEA Lənkəran Regionaı Elmi Mərkəzinin direktoru, aqrar elmlər doktoru, professor Fərman Quliyevin yeni çay sortlarının yetişdirilməsi üzrə təcrübə sahəsinə baxış keçirilib.

Tədbirdə iştirak edən BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Roma ofisinin nümayəndəsi Stanislav Prixodko görülən işlərdən məmnun qaldığını bildirib.

Rayonun İstisu qəsəbəsində fermer Araz Yağubovun çay sahələrinin, professor Fərman Quliyevin rəhbərliyi altında aparılan sort sınaq işləri nəticəsində yaradılan yeni çay sortlarının Azərbaycanda çayçılığın daha geniş sahədə yayılmasına, bu xeyirli sahənin yenidən inkişafına böyük ümidlər yaratdığını vurğulayan S.Prixodko yaxın gələcəkdə FAO ilə Azərbaycan arasında çayçılıq və sitrusçuluq sahəsində də əməkdaşlıq layihələrinin həyata keçiriləcəyini diqqətə çatdırıb.

Elmi seminarın iştirakçıları professor Fərman Quliyevin rəhbərliyi altında yeni məhsuldar çay sortlarının yetişdirilməsi üçün görülən işlərdən razı qalaraq tanınmış elm adamına və bu işdə əməyi olan şəxslərə uğurlar arzulayıblar.

Barat KƏRİMOV

"BƏBİRLƏRİ MÜHAFİZƏ EDƏK" YAY DÜŞƏRGƏSİ

İyunun 19-21-də IDEA İctimai Birliyi, Azərbaycan Respublikasının Gənclər Fondu, Azərbaycan Respublikası Təhsil Nazirliyi və Ümumdünya Vəhşi Təbiətin Mühafizəsi Fondunun (WWF) Azərbaycan nümayəndəliyinin təşkilatçılığı, Lənkəran Şəhər İcra Hakimiyyətinin dəstəyi ilə ənənəvi "Bəbirləri mühafizə edək" ekoloji yay düşərgəsi keçirilib. Düşərgədə Lənkəran, Astara, Lerik və Masallı rayonlarından 60-a yaxın məktəbli iştirak edib.

Düşərgənin ilk günü iştirakçılar bəbirlərin həyat tərzi, yayıldığı ərazilər və təbiətdəki rolu haqqında geniş məlumatlar əldə edib, bu nadir canlı növünün qorunması mövzusunda seminarlarda, bəbirlərin populyasiyasının azalma səbəbləri ilə bağlı təqdimatda, o cümlədən müxtəlif ekoloji müsabiqələrdə, biomüxtəlifliklə bağlı bilik yarışmalarında iştirak ediblər. Həmçinin məktəblilərə təbiət fotoqrafı və rejissoru Adrian Stern tərəfindən çəkilən "Dünyanın ən çox axtarılan bəbiri" sənədli filmi nümayiş olunub.

Düşərgənin ikinci və üçüncü günlərində iştirakçılar arasında futbol çempionatı keçirilib. Oyunda Lənkəran, Lerik, Masallı və Astara rayonları üzrə 11-ci sinif şagirdlərindən ibarət 3 komanda iştirak edib. Həm qız, həm də oğlanlardan ibarət olan komandalar arasında üç oyun keçirilib. Final oyununun nəticəsi olaraq Lerik komandası çempionatın qalibi olub.

Çempionatın sonunda qalib komandaya kubok və medallar, bütün düşərgə iştirakçılarına sertifikat və xatirə hədiyyələri təqdim edilib.

Məlumat üçün bildirək ki, IDEA İctimai Birliyinin təşəbbüsü ilə ətraf mühit və biomüxtəliflik mövzusunda düşərgələr mütəmadi əsaslarla 2014-cü ildən etibarən hər il təşkil edilir. Bu müddət ərzində düşərgələrdə Salyan, Neftçala, Goranboy, Samux, Qax, Şəki, Masallı, Cəlilabad, Yardımlı, Lənkəran, Astara, Göygöl, Lerik, Qəbələ, İsmayıllı rayonlarından ümumilikdə 500-ə yaxın məktəbli iştirak edib.

Barat KƏRİMOV

YENİ KİTABIN TƏQDİMATI OLUB

Lənkəranın Ləj kəndi haqqında "Ruhumuzun qidalandığı məkan - Ləj" adlı kitabın birinci hissəsi bu günlərdə işıq üzü görüb. Qafqaz Müsəlmanları İdarəsi Fətva və Moizə şöbəsinin imamı, AMEA-nın Füzuli adına Əlyazmalar İnstitutunun doktorantı, ilahiyyatçı-alim Samid Quliyevlə Ləj kənd tam orta məktəbinin direktoru İlkin Yaqubovun birgə qələmə aldığı bu kitab 3 saylı Bakı Mətbəəsi ASC tərəfindən ofset üsulu ilə çap olunub. 162 səhifəlik nəşrin elmi redaktoru filologiya elmləri doktoru, professor Kamandar Şərifov, elmi məsləhətçisi filologiya elmləri doktoru, professor İmamverdi Həmidov, redaktoru tanınmış jurnalist Mehman Fərzullayevdir. Ön sözün müəllifi Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvü, Prezident mükafatçısı, Beynəlxalq Rəsul Rza mükafatı laureatı, şair Etibar Vəliyevdir.

Kitabda Ləj kəndinin coğrafi mövqeyi, tarixi, iqtisadi, mədəni və sosial həyatından bəhs edilib, tanınmış şəxsiyyətləri, ziyalıları, müharibə (Sovet-fin, Sovet-alman, Əfqanıstan, Qarabağ) veteranları və sadə peşə adamları haqqında da geniş məlumat verilib.

Kitabı oxuduqda məlum olur ki, 342 hektar əraziyə və 2080 nəfər əhaliyə malik olan Ləj kəndindən Milli Qəhrəman, Prezident mükafatçısı, neçə-neçə alim, müəllim, həkim, aqronom, mühasib, mühəndis, polis işçisi, hərbçi, din xadimi, rayon səviyyəli dövlət qulluqçuları və digərləri yetişib.

Bu günlərdə Ləj kənd tam orta məktəbində "Ruhumuzun qidalandığı məkan – Ləj" kitabının təqdimatı keçirilib. Tədbirdə çıxış edən ön sözün müəllifi Etibar Vəliyev kitab haqqında ətraflı məlumat verib. Daha sonra Azərbaycan Yazıçılar Birliyi Lənkəran şöbəsinin sədr müavini Ağamir Cavad, Milli Qəhrəman atası Ələkbər Əliyev, şairə Xatirə Xatun, pedaqoqika üzrə fəlsəfə doktoru, dosent Tükəzban Cahangirova, "Respublika" qəzetinin bölgə müxbiri Əlisəfa Həsənov, Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının Ləj kəndi üzrə nümayəndəsi Bayram Cəfərov, tarixçilər İldırım Şükürzadə, Aqşin Əliyev, Lənkəran Şəhər Təhsil Şöbəsinin nümayəndəsi Nəsir Əkbərov, şəhər 9 nömrəli məktəbin direktoru, şair Bəxtiyar Əliyar, Şağlaküçə kənd məktəbinin direktoru Məmməd Səfərov və digərləri çıxış edərək kitabın məziyyətləri haqqında fikirlərini bildiriblər.

Sonda yeni nəşr olunan kitab müəlliflərin imzaları ilə mərasim iştirakçılarına hədiyyə edilib.

A.ŞAĞLASERLİ

BİRİNCİ LƏNKƏRAN BEYNƏLXALQ TEATR FESTİVALI UĞURLA BAŞA ÇATDI

Mədəniyyət Nazirliyi, Lənkəran Şəhər İcra Hakimiyyəti və Azərbaycan Teatr Xadimləri İttifaqının birgə təşkilatçılığı ilə "Azərbaycan teatrı 2009-2019-cu illərdə" Dövlət Proqramı çərçivəsində keçirilən I Lənkəran Beynəlxalq Teatr Festivalı uğurla başa çatıb.

Festivalın sonuncu günü – iyunun 5-də ilkin olaraq İran İslam Respublikasının Ərdəbil şəhərindəki "Ünvan" Teatrının "Qızıl başmaq" tamaşası oynanılıb. Əli Bəhnunun əsəri əsasında hazırlanmış tamaşanın quruluşçu rejissoru Həsən Şıxzadədir.

Qeyd edək ki, Ərdəbil şəhərinin "Ünvan" teatrı 2012-ci ildən fəaliyyət göstərir. Teatrın repertuarında İran və dünya klassiklərinin əsərləri yer alıb. "Ünvan" teatrı uşaqlar və gənclər üçün tamaşalar hazırlayır.

"Qızıl başmaq" tamaşası İranda keçirilən bir sıra beynəlxalq teatr festivallarında nümayiş etdirilib.

İranlıların çıxışından sonra Lənkəran səhnəsi Şuşa Dövlət Musiqili Dram Teatrı artistlərinin ixtiyarına verilib. Ərəb nağılları əsasında hazırlanmış "Əlibaba və qırx quldur" tamaşasına teatrın baş rejissoru, Əməkdar artist Loğman Kərimov quruluş verib. Səhnə tərtibatçısı Valeh Məmmədovdur. Bir hissəli nağıltamaşada rolları Emin Sevdimalıyev (Əlibaba), Gündüz Qasımov (Qasım), Zəhra Salayeva (Zeynəb), Günel İmanova (Fatimə) və başqaları ifa ediblər.

Rejissor tamaşada əsas diqqəti quldurların mağarasının sehrini öyrənən və cah-cəlal qaynayan mağaradan yalnız ehtiyacı olan qədər qızıl götürən Əlibabaya çəkir. Quldurların talançılıqla, qarətlə əldə etdikləri qızılları belə ehtiyacı olduğu qədər götürən və onu da özü kimi kasıblara sərf edən Əlibabanın əməli tamaşaçılara "xeyir daim şərə qalib gəlir" mesajını verir.

Quruluş müəllifi və rəssam klassik nağıla sadə səhnə tərtibatı verməklə rəngarəng Şərq üslublu səhnə geyimləri ilə tamaşaçıların gözünü oxşamağa çalışıblar. Musiqi tərtibatı, seçilən parçaların polifonik ardıcıllığı da səhnə əsərini baxımlı edib.

Festivalda son olaraq Salyan Dövlət Kukla Teatrı tamaşaçıların qarşısına Azərbaycan xalq nağılı əsasında hazırlanmış "Bostançı və Şah Abbas" tamaşası ilə çıxıb.

Nağılda haqq-ədalət adil Şah Abbasın timsalında, tamahkarlıq və paxıllıq kimi mənfi hisslər şahın vəziri Allahverdinin obrazında təcəssüm olunub. Tamaşaçılar tərəfindən sürəkli alqışlarla qarşılanan bu səhnə əsərinin quruluşçu rejissoru Rauf Afşarov, rəssamı Xatirə Avşarovadır.

Hər üç tamaşadan sonra teatrların kollektivlərinə Mədəniyyət Nazirliyinin diplomları təqdim olunub.

Festivalın bağlanış mərasimində Lənkəran Dövlət Dram Teatrının direktoru Tofiq Heydərov, teatrın aparıcı səhnə ustası, Xalq artisti Qabil Quliyev və Mədəniyyət Nazirliyinin nümayəndəsi Könül Əliyeva-Cəfərova çıxış edərək bu sənət yarışmasının onun iştirakçılarında xoş anlar yaşatdığını söyləyərək, festivalın keçirilməsində zəhməti olan hər kəsə minnətdarlıqlarını çatdırıblar.

Xatırladaq ki, iyunun 1-də startı verilən I Lənkəran Beynəlxalq Teatr Festivalına ölkəmizin 10 sənət ocağı - Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı, Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı, Azərbaycan Dövlət Kukla Teatrı, Şuşa Dövlət Musiqili Dram Teatrı, Gəncə Dövlət Kukla Teatrı, Lənkəran Dövlət Dram Teatrı, Bakı Uşaq Teatrı, Qax Dövlət Kukla Teatrı, Şəki Dövlət Dram Teatrı, Salyan Dövlət Kukla Teatrı və müstəqil "Ol" Teatrı öz tamaşaları ilə qatılıblar. Beynəlxalq festivalda, həmçinin Böyük Britaniyanın "Two Destination Language" Teatrı, Gürcüstanın "Azadlıq" Teatrı, İranın "Muğan Hünər" və "Mika" teatrları, habelə "Ünvan" Ərdəbil şəhər teatrının kollektivləri iştirak ediblər.

Ağaddin BABAYEV

QURBAN BAYRAMI NƏ VAXT QEYD EDİLƏCƏK?

"Avqustun 12-si və 13-də Azərbaycanda Qurban bayramı qeyd ediləcək".

Bunu KİV-ə Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Fuad Nurullayev bildirib:

"Dini təqvimə əsasən, Qurban bayramı hər zaman Zilhiccə ayının 10-u qeyd edilir. Bir çox ölkələrdə Qurban bayramı 3 gün qeyd olunur. Məkkədə Həcc ziyarətində olanlar da bayramı 3 gün qeyd edirlər, yəni qurbanı 3 gün ərzində kəsmək olar".

Sədr müavini avqustun 1-dən 6-a qədər Həcc ziyarəti ilə bağlı müraciətlərin davam edəcəyini qeyd edib.

"Lənkəran"

HƏMYERLİMİZ BEYNƏLXALQ TURNİRDƏ ERMƏNİ İDMANÇISINI MƏĞLUB EDİB

Lənkəranlı idmançı Ağasəlim Mustafazadə Rusiyanın Stavropol şəhərində keçirilən boks üzrə beynəlxalq turnirdə yeni uğura imza atıb. Azərbaycan millisinin tərkibində çıxış edən həmyerlimiz 60 kiloqram çəki dərəcəsində rusiyalı və ukraynalı idmançıları yarışdan kənarlaşdırdıqdan sonra finalda erməni rəqibinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə yüksəlib.

Gənc boksçu qələbə sevincini KİV nümayəndələri ilə bölüşərək deyib:"Beynəlxalq turnirə ciddi hazırlaşmışdım. On beş gün təlim-məşq toplanışında olduq. Yarışda 4 döyüş keçirdim, onlardan ikisində vaxtından əvvəl qələbə qazandım. Finalda erməni boksçusu üzərində qələbə qazanaraq birinci yeri tutdum. Bu qələbəmi Aprel döyüşlərində canından keçmiş şəhidlərimizin xatirəsinə həsr edirəm."

Məlumat üçün bildirək ki, Ağasəlim Mustafazadə 12 yaşından boksla məşğul olur. Altı illik idman karyerasında o, bir neçə dəfə uğur qazanıb.

Gənc boksçu Ulu Öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş beynəlxalq boks turnirinin, iki dəfə isə Azərbaycan çempionatının finalçısı olub.

Gürcüstan və Ukraynada keçirilən beynəlxalq yarışlarda

qızıl medal qazanan lənkəranlı idmançı Rusiyada keçirilən beynəlxalq turnirlərdə 6 dəfə fəxri kürsünün yüksək pilləsinə qalxıb.

Ağasəlim uğurları ilə kifayətlənmir. O, artıq növbəti yarışlar üçün ciddi şəkildə məşqlərə başlayıb.

"Lənkəran"

ALLAH RƏHMƏT ELƏSİN

Lənkəran Şəhər İcra Hakimiyyəti başçısı aparatının kollektivi İcra başçısı **Taleh Qaraşova** atası

Azay Qaraşovun

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

***

YAP Lənkəran Şəhər Təşkilatının sədri **Möhübbət Babayev** və İdarə Heyətinin üzvləri Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı **Taleh Qaraşova** atası

Azay Qaraşovun

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

***

YAP Lənkəran Şəhər Təşkilatının sədri **Möhübbət Babayev** və İdarə Heyətinin üzvləri YAP Lənkəran şəhər 8 saylı ərazi ilk təşkilatının sədri **Ədalət Babayevə** oğlu

Şükür Babayevin

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

***

"Lənkəran" qəzetinin baş redaktoru **Əlimərdan Əliyev** və kollektivi Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı **Taleh Qaraşova** atası

Azay Qaraşovun

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

***

"Lənkəran" qəzetinin baş redaktoru **Əlimərdan Əliyev** YAP Lənkəran şəhər 8 saylı ərazi ilk təşkilatının sədri **Ədalət Babayevə** oğlu

Şükür Babayevin

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

***

Lənkəran şəhər bələdiyyəsinin sədri **Eldar Hüseynov** və bələdiyyənin üzvləri Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı **Taleh Qaraşova** atası

Azay Qaraşovun

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir

***

Lənkəran Mərkəzi Rayon Xəstəxanasının baş həkimi **Ağabala Kəlbiyev** Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı **Taleh Qaraşova** atası

Azay Qaraşovun

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

***

Lənkəran Şəhər Təhsil Şöbəsinin müdiri **Aslan İbrahimov** və kollektivi Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı **Taleh Qaraşova** atası

Azay Qaraşovun

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

***

Lənkəran şəhər 7 nömrəli tam orta məktəbinin direktoru **Ülviyyə Əliyeva** və pedaqoji kollektivi Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı **Taleh Qaraşova** atası

Azay Qaraşovun

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

***

Digah kənd tam orta məktəbinin direktoru **Südabə Babayeva** və pedaqoji kollektivi Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı **Taleh Qaraşova** atası

Azay Qaraşovun

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

***

Boladi kənd 2 nömrəli tam orta məktəbinin direktoru **Aidə Hüseynova** və pedaqoji kollektivi Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı **Taleh Qaraşova** atası

Azay Qaraşovun

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

***

Haftoni qəsəbə tam orta məktəbinin direktoru **Sevər Ağayeva** və pedaqoji kollektivi Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı **Taleh Qaraşova** atası

Azay Qaraşovun

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

***

Şirinsu kənd tam orta məktəbinin direktoru **Zeynəb Əhmədova** və pedaqoji kollektivi Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı **Taleh Qaraşova** atası

Azay Qaraşovun

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

***

Girdəni kənd İcra nümayəndəsi **Şirin Əzizova** və bələdiyyə sədri **Mahir Rəhimov** Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı **Taleh Qaraşova** atası

Azay Qaraşovun

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

***

İstisu qəsəbə İcra nümayəndəsi **Vaqif Bayramov** və bələdiyyə sədri **Rahim Xosrovov** Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı **Taleh Qaraşova** atası

Azay Qaraşovun

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

***

Vilvan bələdiyyəsinin sədri **Hafizə Quliyeva** Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı **Taleh Qaraşova** atası

Azay Qaraşovun

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

***

Azərbaycan Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Lənkəran Şəhər Komitəsinin sədri **Oqtay İbayev** Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı **Taleh Qaraşova** atası

Azay Qaraşovun

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

***

Lənkəran Dövlət Dram Teatrının direktoru **Tofiq Heydərov** və kollektivi Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı **Taleh Qaraşova** atası

Azay Qaraşovun

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

***

"Söz" jurnalının baş redaktoru **Sevda Əlibəyli** Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı **Taleh Qaraşova** atası

Azay Qaraşovun

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

***

Kosalar kənd tam orta məktəbinin direktoru **Kamran Abdullayev** və kollektivi Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı **Taleh Qaraşova** atası

Azay Qaraşovun

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

***

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında DANX-nin Lənkəran Regional Bölməsinin rəisi **Faiq Babayev** Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı **Taleh Qaraşova** atası

Azay Qaraşovun

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

***

"Lənkəran Sərnişin" ASC-nin direktoru **Natiq Cəfərov** Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı **Taleh Qaraşova** atası

Azay Qaraşovun

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

***

15 saylı Ərazi Maliyyə Hesablaşma Mərkəzinin rəisi **Sehran Novruzov** Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı **Taleh Qaraşova** atası

Azay Qaraşovun

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

***

Lənkəran şəhər Xarici Dillər Təmayüllü Gimnaziyanın direktoru **Mansur Ağayev** Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı **Taleh Qaraşova** atası

Azay Qaraşovun

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

***

Lənkəran Şəhər Təhsil Şöbəsinin müdiri **Aslan İbrahimov** və kollektivi Kosalar kənd tam orta məktəbinin direktoru **Kamran Abdullayevə** anası

Göyçək xanımın

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

ƏZİZ OXUCULAR!

2019-cu ilin II yarımili üçün "Lənkəran" qəzetinə abunə kampaniyası davam edir.

ALTI AYLIQ ABUNƏ QİYMƏTİ 12 MANATDIR

Əlavə məlumat almaq üçün Mətbuatyayımının Lənkəran rayon şöbəsinə (02525) 5-24-99, (02525) 5-27-61 və redaksiyamıza (02525) 5-35-05, (02525) 5-35-49 nömrəli telefonlara zəng edə bilərsiniz.

"Lənkəran" qəzeti

İTMİŞDİR

Lənkəran Rayon Aqrar İslahat Komissiyasının 1998-ci il 03 mart tarixli 4 saylı qərarı ilə Səpnəkəran kənd sakini **Ağacanov Muğam Feyzulla oğlunun** adına verilmiş torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə (JN-298, kod: 80218018) itdiyi üçün etibarsız sayılır.

Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Lənkəran Şəhər Ərazi İdarəsi tərəfindən 28.01.2010-cu il tarixdə Kərgəlan kənd sakini **Ağayeva Xeyrənisə Qulam qızının** adına verilmiş hüquqların dövlət qeydiyyatı haqqında Daşınmaz Əmlakın Dövlət Reyestrindən 0022224 nömrəli Çıxarış itdiyi üçün etibarsız sayılır.

Lənkəran Rayon Aqrar İslahat Komissiyasının 2002-ci il 08 avqust tarixli 04 saylı qərarı ilə Sütəmurdov kənd sakini **Qasımov Əlihəsən Əliağa oğlunun** adına verilmiş torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə (JN-489A, kod:80200058) itdiyi üçün etibarsız sayılır.

Lənkəran Rayon Aqrar İslahat Komissiyasının 2002-ci il 08 avqust tarixli 04 saylı qərarı ilə Sütəmurdov kənd sakini **Qasımov Əlihəsən Əliağa oğlunun** adına verilmiş torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə (JN-712A, kod:80200058) itdiyi üçün etibarsız sayılır.

Baş redaktor Əlimərdan ƏLİYEV

TƏSİSÇİLƏR: **Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının aparatı və "Lənkəran" qəzetinin yaradıcı kollektivi**

HESAB NÖMRƏMİZ: **AZ30AIIB33010019443860238138 VÖEN 2600244411 Kapital Bankın Lənkəran filialı lisenziya № V 343 İndeks: 66920**

ÜNVANIMIZ: **Lənkəran şəhəri, Heydər Əliyev prospekti, 3 (4-cü mərtəbə) Telefonlar: 255-35-05, 255-35-49 E-mail: lenkeranqezeti@mail.ru Buraxılışa məsul İltifat Əhmədov**

Qəzet redaksiyanın kompüter mərkəzində yığılmış və səhifələnmiş, Bakıda "Azərmedia" MMC-nin mətbəəsində çap olunmuşdur. Tiraj: 2100